PSİXOLOGİYA ELMİ-TƏDQİQAT İNSTİTUTU

# “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın Azərbaycan dilinə adaptasiyası: Onun həyat məmnuniyyətinə və psixoloji dayanıqlılığa təsirinin araşdırılması

Elmi-tədqiqat işi

**Müəlliflər:** Bəxtiyar Əliyev, Ülkər Zalova Nuriyeva, Elnur Rüstəmov, Emilya Nəsibova,Tamara Yusifova, Sevil Abbasova

Bakı: 2025

“Ömür boyu bacı-qardaş münasibətləri şkalasının Azərbaycan dilinə adaptasiyası: Onun həyat məmnuniyyətinə və psixoloji dayanıqlılığa təsirinin araşdırılması” mövzusunda elmi-tədqiqat işinin

## REFERATI

Elmi-tədqiqat işinin obyekti “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”dır.

Tədqiqatın məqsədi “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın Azərbaycan dilində psixometrik meyarlarının yoxlanması və dilimizə adaptasiyasını həyata keçirməkdən ibarətdir.

Tədqiqatın qarşıya qoyulmuş məqsədindən irəli gələn vəzifə:

a) Bacı-qardaş münasibətinin mahiyyətini açmaq;
b) “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın linqvistik ekvivalentliyinin yoxlanılması;
c) Hədəf kütlənin müəyyən olunması və tədqiqatın keçirilməsi;
ç) Təsdiqləyici factor analizinin aparılması və strukturun yoxlanılması
d) Tədqiqatın etibarlılığının yoxlanılması;
e) “Ömür boyu bacı-qardaş münasibətləri şkalası” ilə “Həyat məmnuniyyəti şkalası” və “Qısa dözümlülük şkalası” arasındakı korrelyasiyanın yoxlanılması.

Tədqiqatın konkret məqsəd və vəzifəsindən çıxış edərək çoxlu sayda və müxtəlif adda elmi – psixoloji ədəbiyyat təhlil edilmişdir.

Tədqiqatda aşağıdakı nəticələr çıxarılmışdır:

- Şkalanın Azərbaycan dilinə uyğunlaşdırılmış variantının təsdiqedici faktor analizinin psixometrik nəticələri orijinal versiyanın strukturunu dəstəkləmişdir.
- Təhlil göstərdi ki, 47 maddəlık şkala fərdlərin bacı-qardaş münasibətlərini qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, şkala daxili tutarlılıq və etibarlılıq baxımından qənaətbəxş psixometrik xüsusiyyətlərə malikdir.
- “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın etibarlılıq səviyyəsinin 0,70-dən yuxarı olduğu məlum olmuşdur. Nunnali və Bernşteynə görə bu tamamilə qənaətbəxş bir göstəricidir. Bu şkala üçün Kronbax alfa, 0,960 olaraq müəyyən olunmuşdur. Kronbax alfa-dan başqa, McDonald omeqa və Gutman Lambda etibarlılıq əmsalları da qiymətləndirilmiş və omeqa üçün 0.939, lamba üçün 0.814, dəyəri əldə olunmuşdur.
- Nəticələr göstərib ki, bacı-qardaş münasibətləri yaxşı olan ailələrdə həm həyat məmnuniyyəti, həm də psixoloji dayanıqlıq yüksəkdir. Eyni zamanda ailə daxili münasibətlərin yaxşı olması insanların ümumi rifahına, həyat məmnuniyyətinə, psixoloji dayanıqlılığına və psixoloji sağlamlığına müsbət təsir göstərir.

- "Ömür boyu bacı-qardaş münasibətləri şkalası"nın Azərbaycan dilində validlik və etibarlılıq kimi psixometrik meyarları yoxlanılmış və şkala dilimizə müvəffəqiyyətlə adaptasiya olunmuşdur.

# Mündəricat:

GİRİŞ……………………………………………………………………………......5

I Fəsil. Bacı-qardaş münasibətlərinin sosial-psixoloji xüsusiyyətləri…….……......…7

1.1. Bacı-qardaş münasibətlərinin mahiyyəti…………………………………….....7

1.2. Ailə sisteminin bacı-qardaş münasibətlərinə təsiri………….……………….....8

II Fəsil. "Ömür boyu bacı-qardaş münasibətləri şkalası"nin Azərbaycan dilinə adaptasiyası…………………………………………………………………..14

2.1. Tədqiqatın metodikası.........................................................................................14

2.2. Tədqiqat nəticələrinin təhlili………………………………………………19

NƏTİCƏ...................................................................................................................23

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

.......................................................................24

## GİRİŞ

Bacı-qardaş münasibətləri insanın sosial və emosional inkişafına təsir edən mühüm faktorlardandır. Bu münasibətlər ailə strukturu, fərdi xüsusiyyətlər və sosial amillərlə formalaşır. Uşaqlıqda qurulan bağlar yeniyetməlik və yetkinlik dövründə dəyişə bilər. Tədqiqatlar göstərir ki, bacı-qardaşlar bir-birilərinə sosial dəstək verir, rəqabət aparır və şəxsiyyətin formalaşmasına təsir edirlər. Valideyn münasibətləri, doğum sırası və ailə şəraiti də bu əlaqələrin keyfiyyətini müəyyən edir. Uzunmüddətli və güclü sosial bağlar yaradan bacı-qardaş münasibətləri insan həyatında dostluq və ailə əlaqələrindən daha sabit ola bilər.

Əfsuslar olsun ki, bacı-qardaş münasibətlərinin öyrənilməsi barədə Azərbaycan dilində hər hansı bir şkala yoxdur. Bu istiqamətdə profilaktik tədbirlər görmək üçün ilkin növbədə xüsusi ölçmə metodları vasitəsilə problemlər aşkar olunmalı, tədqiq edilməlidir. Azərbaycanda bu məsələnin tədqiq olunması üçün validliyə və mötəbərliliyə malik olan hər hansısa bir şkalanın (test) olmaması məhz bu tədqiqatın aparılması və "Ömür boyu bacı-qardaş münasibətləri şkalası"nın Azərbaycan dilinə adaptasiya olunması zərurətini ortaya qoydu.

Elmi-tədqiqat işinin obyekti “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”dır.

Tədqiqatın məqsədi “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın Azərbaycan dilində psixometrik meyarlarının yoxlanması və dilimizə adaptasiyasını həyata keçirməkdən ibarətdir.

Tədqiqatın qarşıya qoyulmuş məqsədindən irəli gələn vəzifə:

a) Bacı-qardaş münasibətinin mahiyyətini açmaq;
b) “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın linqvistik ekvivalentliyinin yoxlanılması;
c) Hədəf kütlənin müəyyən olunması və tədqiqatın keçirilməsi;
ç) Təsdiqləyici factor analizinin aparılması və strukturun yoxlanılması;
d) Tədqiqatın etibarlılığının yoxlanılması;
e) “Ömür boyu bacı-qardaş münasibətləri şkalası” ilə “Həyat məmnuniyyəti şkalası” və “Qısa dözümlülük şkalası” arasındakı korrelyasiyanın yoxlanılması.

Tədqiqatın konkret məqsəd və vəzifəsindən çıxış edərək çoxlu sayda və müxtəlif adda elmi – psixoloji ədəbiyyat təhlil edilmişdir.

Tədqiqatda aşağıdakı nəticələr çıxarılmışdır:

- Şkalanın Azərbaycan dilinə uyğunlaşdırılmış variantının təsdiqedici faktor analizinin psixometrik nəticələri orijinal versiyanın strukturunu dəstəkləmişdir.

- Təhlil göstərdi ki, 47 maddəlık şkala fərdlərin bacı-qardaş münasibətlərini qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, şkala daxili tutarlılıq və etibarlılıq baxımından qənaətbəxş psixometrik xüsusiyyətlərə malikdir.
- "Ömür boyu bacı-qardaş münasibətləri şkalası"nın etibarlılıq səviyyəsinin 0,70-dən yuxarı olduğu məlum olmuşdur. Nunnali və Bernşteynə görə bu tamamilə qənaətbəxş bir göstəricidir. Bu şkala üçün Kronbax alfa, 0,960 olaraq müəyyən olunmuşdur. Kronbax alfa-dan başqa, McDonald omeqa və Gutman Lambda etibarlılıq əmsalları da qiymətləndirilmiş və omeqa üçün 0.939, lamba üçün 0.814, dəyəri əldə olunmuşdur.
- Nəticələr göstərib ki, bacı-qardaş münasibətləri yaxşı olan ailələrdə həm həyat məmnuniyyəti, həm də psixoloji dayanıqlıq yüksəkdir. Eyni zamanda ailə daxili münasibətlərin yaxşı olması insanların ümumi rifahına, həyat məmnuniyyətinə, psixoloji dayanıqlılığına və psixoloji sağlamlığına müsbət təsir göstərir.
- "Ömür boyu bacı-qardaş münasibətləri şkalası"nın Azərbaycan dilində validlik və etibarlılıq kimi psixometrik meyarları yoxlanılmış və şkala dilimizə müvəffəqiyyətlə adaptasiya olunmuşdur.

Elmi-tədqiqat işi giriş, 2 fəsil, 4 altfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. Bacı-qardaş münasibətlərinin sosial-psixoloji xüsusiyyətləri

## 1.1. Bacı-qardaş münasibətlərinin mahiyyəti

Yetkinliyə keçid dövründə sosial münasibətlərin inkişafına dair ədəbiyyatın çoxunda erkən yetkinlik münasibətlərinin inkişaf edəcəyi sosial mənzərənin qurulmasında valideynlər və həmyaşıdlarla əvvəlki əlaqələrin roluna diqqət yetirilir. İnsanların psixologiyasına ciddi təsir göstərən amillərdən biri də şəxslərarası münasibətlərdir. Şəxslərarası münasibətlərin təməli ailə ilə olan münasibətlərdir. Aparılmış bir çox tədqiqatın nəticələrinin əksəriyyəti münasibətlərin xüsusiyyətlərinin yaşa görə dəyişdiyi fikri ilə uyğun gəlir, belə ki, erkən yeniyetmələr daha çox sadiq dostluq münasibətlərinə malikdir, yeniyetməliyin sonlarında isə yeniyetmələr daha çox qərarlı və dəstəkləyici münasibətlərə malikdirlər [38; 39].

Həyat boyu bacı-qardaş təmaslarının yaxınlığı artır və azalır, lakin bacı-qardaş münasibətləri rifah və psixososial fəaliyyətə güclü təsir göstərir [27; 37 ]. Bu gün fərdlərin təxminən doxsan faizinin bacısı və ya qardaşı var və bir çox tədqiqatçılar uşaqlıq və yetkinlik dövründə bacı-qardaş əlaqələrinin vacibliyini vurğulayırlar [25]. Bacı-qardaşlar bir-birlərini öyrətmək imtiyazına malikdirlər və bir-birləri üçün modelləşdirmə və möhkəmləndirmə təmin edə bilərlər. Tədqiqatlar həmçinin göstərmişdir ki, bacı-qardaş münasibətlərinin keyfiyyəti uşağın uyğunlaşmasına təsir göstərir, xüsusən şəxsiyyət və muxtariyyət inkişafının əsas əhəmiyyət kəsb etdiyi yeniyetməlik dövründə [8].

Bacılar və qardaşlar uşaqların və yeniyetmələrin ailə həyatında mühüm yer tutur. Araşdırmalar göstərir ki, onlar bir-birlərinin gündəlik həyatında dost, sirdaş, rəqib və sosial müqayisə obyekti kimi müxtəlif rollar oynayırlar. Bacı-qardaş münasibətləri ilə bağlı tədqiqatlar bu sosial dinamikaları izah edən amilləri müəyyənləşdirmək və onların gənclərin inkişafına və rifahına təsirini öyrənmək məqsədi daşıyır. Bu araşdırmalardan bilirik ki, bacı-qardaş münasibətləri fərdi xüsusiyyətlərdən tutmuş mədəni dəyərlərə qədər bir çox amillərlə formalaşır. Həmçinin məlumdur ki, bacılar və qardaşlar bir-birlərinə birbaşa təsir göstərə bilərlər – sosial partnyor, nümunə və ya müqayisə obyekti kimi [22].

Yeniyetməliyin sonrakı mərhələlərində yeniyetmələr romantik partnyorlarının dəstəyini valideynlərinin və ya yaşıdlarının dəstəyindən daha yüksək qiymətləndirirlər [33]. Yaşla yanaşı, münasibətlərin müddəti keyfiyyətə təsir edir, belə ki, daha uzun əlaqələr daha çox bağlılıq xüsusiyyətləri ilə xarakterizə olunur [23]. Bu hal hər yaş qrupu üçün keçərlidir. Yeniyetməliyin sonrakı mərhələlərində gənc yeniyetmələrə nisbətən insanlar daha uzun münasibətlərinin olduğunu bildirirlər [5; 6; 39].

Erkən dövrlərdə Freyd və Adlerin psixodinamik nəzəriyyələrində bacı-qardaş rəqabəti mövzusu vurğulanmışdır. Adler isə doğum sırasının əhəmiyyətini ön plana çəkərək doğum sırası və bacı-qardaş münasibətlərinim strukturunun intellektual və şəxsiyyət xüsusiyyətlərinə təsirini araşdıran geniş empirik ədəbiyyatın yaranmasına səbəb olmuşdur. Adlerin fikrincə, uşaqlar sosial müqayisə mənbəyi kimi çıxış edərək dolayısı ilə bacı-qardaşlarının xüsusiyyətlərini və davranışlarını formalaşdırırlar. Onlar çox erkən yaşlarından valideynlərinin onlara bacı-qardaşlarına nisbətən necə davrandığını diqqətlə müşahidə edirlər [1].

Uşaqlıq dövründə bacı-qardaşların bir-birlərinə qarşı müsbət və mənfi davranışları və hissləri erkən yeniyetməlik dövründə bacı-qardaş münasibətlərinin keyfiyyəti ilə əhəmiyyətli dərəcədə əlaqələndirilir. Beləliklə, uşaqlıq dövründə bacı-qardaş münasibətlərinin xarakteri yeniyetməlik dövrünə qədər uzana bilər. Bununla belə, uşaqlıqda yaxşı bacı-qardaş münasibəti sonrakı yeniyetməlik dövründə də eyni yaxşı qardaş münasibətlərinə zəmanət vermir. Yetkinlik dövründə baş verən bioloji, koqnitiv və sosial dəyişikliklərlə əlaqəli bacı-qardaş münasibətlərinin təbiəti yeniyetməlik dövründə dəyişə bilər [3; 8; 34].

Ümumiyyətlə, yeniyetmələr valideynlərinin təsirindən qaçmağa meyllidirlər, lakin bu dövrdə bacı-qardaşlar hələ də həyat planları və şəxsi problemlər haqqında məsləhətlər verirlər [48].

Bacı-qardaş münasibətlərinin ailə daxilində necə formalaşdığını araşdırmaq, həm bacı-qardaş münasibətlərini, həm də ailələri sosial sistemlər kimi daha yaxşı anlamağa kömək edir. Ənənəvi olaraq bacı-qardaş münasibətlərini öyrənmək üçün istifadə edilməsə də, ailə sistemləri yanaşması ailəni təşkil edən alt sistemlər arasındakı qarşılıqlı asılılığa diqqət yönəldir [24]. Bu yanaşma, evlilik və valideynlik alt sistemlərinin bacı-qardaş münasibətləri ilə necə əlaqəli olduğunu araşdırmaq üçün ümumi bir çərçivə təqdim edir.

## 1.2. Ailə sisteminin bacı-qardaş münasibətlərinə təsiri

Evlilik alt sisteminə gəldikdə, evlilik vəziyyəti ilə bacı-qardaş münasibətləri arasındakı əlaqəni öyrənən səkkiz tədqiqatın meta-analizi göstərmişdir ki, boşanmış ailələrdə bacı-qardaş münasibətləri həmişə evli qalan ailələrlə müqayisədə daha müsbət olur [18]. Lakin digər tədqiqatlar boşanmış və ayrılmış ailələrdə bacı-qardaş münaqişələrinin və neqativliyin daha yüksək olduğunu ortaya qoymuşdur [28]. Eyni zamanda, tək valideynli ailələrdə bu neqativliyin ögəy valideynli və tam ailələrlə müqayisədə daha yüksək olduğu müəyyən edilmişdir [7]. Müxtəlif nəticələrin alınmasının səbəbi bacı-qardaş münasibətlərinin fərqli aspektlərinin araşdırılması ilə bağlı ola bilər. Noller və digərləri bacı-qardaş münasibətlərini həm yüksək pozitivlik, həm də yüksək neqativlik ilə xarakterizə olunan "emosional intensiv" kateqoriyasına görə təsnif etmiş və boşanmış ailələrdə bu cür münasibətlərin daha çox rast gəlinən bir

model olduğunu aşkar etmişdir. Burada vacib məqam ondan ibarətdir ki, bacı-qardaş dinamikasını başa düşmək üçün münasibətlərin bir neçə aspektini eyni anda nəzərə almaq lazımdır.

Toplanan tədqiqatlar göstərir ki, evlilik və ailə prosesləri – məsələn, həyat yoldaşları arasındakı münaqişələr, birgə valideynlik və tərbiyə metodları – ailə strukturundan daha çox bacı-qardaş münasibətlərinə təsir edir [29]. Bu nəticələr ümumiyyətlə "yayılma prosesi" modelinə uyğundur. Yəni, evlilik münasibətlərindəki düşmənçilik və münaqişələr, eləcə də valideyn-övlad münasibətlərindəki neqativlik bacı-qardaşlar arasında konfliktlərə və hətta zorakılığa səbəb ola bilər [11; 15]. Valideyn-övlad münasibətlərindəki neqativlik eyni zamanda evlilik və bacı-qardaş dinamikası arasındakı əlaqəni vasitələndirir [44]. Bununla belə, bəzi gənclər ailədəki neqativliyi kompensasiya etmək üçün yaxın bacı-qardaş münasibətləri formalaşdırır və bu da onların psixoloji uyğunlaşma problemlərindən qorunmasına kömək edir [12; 26]. Vacib bir addım yayılma ilə kompensasiyaedici proseslərin hansı şəraitdə baş verdiyini müəyyən etməkdir.

Ailə sistemlərinin bacı-qardaş münasibətlərinə təsiri həm də valideynlərin bacı-qardaşlara fərqli münasibəti vasitəsilə öyrənilmişdir. Ana və atanın övladlara fərqli münasibət göstərməsi və bunun bacı-qardaş münasibətlərinə təsiri bir neçə tədqiqatda araşdırılmışdır [15; 43; 50]. Bu araşdırmalar göstərir ki, əgər valideynlərdən biri bir bacı və ya qardaşa üstünlük verirsə, digəri isə neytral qalırsa, bu vəziyyət valideyn-övlad münasibətlərində uyğunsuzluq yarada bilər. Bu da həm bacı-qardaş, həm də evlilik münasibətlərində neqativ dinamikaya və övladların psixoloji uyğunlaşma problemlərinə səbəb ola bilər. Bu cür tədqiqatlar göstərir ki, ailələri bir sistem kimi öyrənərkən bacı-qardaş münasibətlərini nəzərə almaq, ailə dinamikasının daha dolğun şəkildə başa düşülməsinə kömək edir.

Erkən araşdırmalar struktur faktorlar üzərində qurulmuş və sosial prosesləri cinsiyyət tərkibi və yaş fərqləri kimi status xarakteristikalarından çıxararaq dəyərləndirmişdir. Son illərdə isə tədqiqatlar status xarakteristikalarından daha da irəli gedərək, bacı-qardaşların şəxsi xüsusiyyətlərini birbaşa ölçməklə onların bacı-qardaş münasibətlərinə təsirini anlamağa yönəlmişdir. Bu istiqamətdə aparılan araşdırmalardan biri bacı-qardaşların temperamentini öyrənmiş və çətin temperamentli uşaqların bacı-qardaş münasibətlərində çətinliklərlə üzləşdiyini göstərmişdir [45]. Daha sonrakı araşdırmalar isə temperamentin ailə şəraiti ilə bacı-qardaş münasibətləri arasındakı əlaqədə moderator rolunu oynadığını göstərmişdir. Bu tədqiqatlar göstərir ki, bacı-qardaşların fərdi xüsusiyyətləri ailədəki stresli vəziyyətlərin onların münasibətlərinə təsirini gücləndirə bilər [45]. Bundan əlavə, bu araşdırmalar bacı-qardaş münasibətlərində kontekstual faktorların rolunu vurğulamışdır, bu məsələyə daha sonra qayıdacağıq.

Eyni zamanda, əlilliyi və ya xroniki xəstəliyi olan uşaqların ailələri ilə bağlı münasibətlərini tədqiq etmək üçün bir sıra tədqiqatlar aparılmışdır. Belə ailələrdə bacı-qardaş münasibətləri və uşaqların uyğunlaşması ilə bağlı aparılan araşdırmalar iki əsas nəticə ortaya qoymuşdur. Birincisi, əlilliyi və ya xəstəliyi olan uşaqları olan ailələrdə bacı-qardaşlar arasında daha çox istilik və müsbət emosional münasibətlər müşahidə olunmuşdur [47]. İkincisi, belə ailələrdə sağlam uşaqların psixoloji uyğunlaşma problemləri yaşama ehtimalı bir qədər yüksək olmuşdur [36]. Bu araşdırmalar əsasən, əlilliyi və ya xroniki xəstəliyi olan uşaqların bacı-qardaşlarının risk altında olduğunu düşünən bir modelə əsaslanmışdır [19]. Lakin bəzi tədqiqatlar göstərmişdir ki, belə mühitdə böyüyən uşaqların inkişafında müsbət təsirlər də ola bilər [20; 21]. Bu nəticələr göstərir ki, qeyri-adi bir bacı-qardaşla yaşamaq uşaqların uyğunlaşma səviyyəsində müxtəlifliyə səbəb ola bilər və onların daha müsbət və ya mənfi şəkildə inkişaf etməsinə təsir edən amillər tədqiqat üçün vacib mövzudur.

Bu cür anlayışlar, qrup müqayisəsindən kənara çıxaraq, qeyri-adi bacı-qardaşları olan uşaqlar arasındakı fərqləri izah edən prosesləri (məsələn, uyğunlaşma üslubları və ya ailə dəstəyi) araşdıran tədqiqatlardan qaynaqlanır [21]. Uzunmüddətli araşdırmalar da vacibdir. Məsələn, autizm və Daun sindromu olan uşaqların bacı-qardaş münasibətlərinin necə inkişaf etdiyini araşdıraraq nadir tədqiqatlardan birini aparmışdır [17]. Belə araşdırmalar göstərir ki, tipik bacı-qardaş böyüdükcə daha valideynə bənzər bir rol alır. Bu, xüsusilə valideynlərin, gələcəkdə özləri baxa bilmədikdə, həmin uşağa kimin qayğı göstərəcəyi ilə bağlı narahatlığı baxımından vacib bir məsələdir.

Artıq məlum olduğu kimi bacı-qardaş münasibətləri bir çox insanların həyatında mərkəzi yer tutur və adətən valideyn-övlad və ya yaşıdlarla əlaqələrdən daha uzun davam edən münasibətlər olur. Avropa və ABŞ-da insanların təxminən 80%-i bacı-qardaşları ilə böyüyür və bu əlaqələr bizim sosial bacarıqlarımıza, münaqişələri idarə etmə yollarımıza təsir edir. XX əsrin əvvəllərindən etibarən ailə nəzəriyyəçiləri bacı-qardaşların ailə dinamikasında mühüm rol oynadığını və fərdi rifaha təsir etdiyini vurğulamışlar. Bacı-qardaş münasibətləri rəqabət və münaqişə ilə xarakterizə oluna bilər, lakin bu münasibət eyni zamanda uşaqlıq, yeniyetməlik və yetkinlik yaş dövrlərində bir insanın ən səmimi və ən yaxın əlaqələrindən biri ola bilər [2; 49]. Uşaqlıq və yeniyetməlik dövründə bacı-qardaşlar bir yerdə çox vaxt keçirir və onların xüsusiyyətləri və münasibətləri bir-birlərinin inkişafına böyük təsir göstərir. Buna baxmayaraq, bacı-qardaş münasibətləri valideyn-övlad və yaşıdlarla əlaqələrlə müqayisədə təəccüblü dərəcədə az tədqiq olunur, baxmayaraq ki, bu əlaqələr adətən digər münasibətlərdən daha uzun davam edir. Bacı-qardaş münasibətləri adətən həyat yoldaşı ilə tanış olmamışdan əvvəl başlayır və valideynlər vəfat etdikdən sonra da davam edir Bununla belə, son on ildə uşaqlar arasında bacı-qardaş münasibətləri ilə bağlı tədqiqatların əhəmiyyətli dərəcədə artması müşahidə olunur. Müsbət, qayğıkeş

bacı-qardaş münasibətləri uşaqların sosial bacarıqlarının , münaqişələri konstruktiv şəkildə həll etmək qabiliyyətinin, sosial və emosional anlayışlarının yaranması üçün çox vacibdir [9; 10].

Yaş və yaş fərqləri bacı-qardaş münasibətlərinin təbiətinə ciddi təsir edir. Tədqiqatlar göstərir ki, uşaqlar yeniyetməlik yaşına çatdıqca bu münasibətlər daha bərabər, rəqabət isə daha az olamağa meyillidir [2]. Lakin son araşdırmalar göstərir ki, bu dinamika yeniyetməlikdən yetkinliyə keçid dövründə yenidən dəyişə bilər [35; 52]. Bundan əlavə, yaş fərqi daha az olan bacı-qardaşlar arasında münaqişələr daha çox olur. Buna səbəb də, ehtimal ki, rəqabət, məsələn, geyim və ya dost çevrəsi kimi ortaq resursların paylaşılmasıdır [46].

Bu sahədə aparılmış bir digər tədqiqat 5-20 yaş arasında olan 60 uşaq və gəncdən ibarət qrupda həyata keçirilmişdir. Onlardan 20-nin autizmli bacı-qardaşı, 20-nin əqli gerilik olan bacı-qardaşı, qalan 20-nin isə hər hansı bir əlilliyi olmayan bacı-qardaşı var idi. Bu üç qrupdakı şəxslər cins, doğum sırası və sosial-iqtisadi status baxımından uyğunlaşdırıldı. Uşaqlardan bacı-qardaş münasibətləri, əlilliyi olan bacı-qardaşları ilə bağlı üzləşdikləri xüsusi problemlər və özləri ilə bağlı problemlər haqqında soruşuldu. Valideynlərlə sağlam uşağın davranışı və sosial uyğunlaşması haqqında müsahibə aparıldı. Analar özləri ilə bağlı Eysenck Şəxsiyyət Anketini tamamladılar. Əlilliyi olan uşaqların bacı-qardaşları və xüsusilə də autizmli uşaqların bacı-qardaşları gələcək haqqında daha çox narahatlıq keçirirdilər. Onlar daha çox tənha hiss edirdilər və bir çoxu həmyaşıdları ilə problemlər yaşayırdılar. Bacı-qardaşlar tez-tez əlilliyi olan bacı-qardaşlarının niyə digər uşaqlardan fərqli olduğunu bilmirdilər. Əlilliyi olan uşaqların bacı-qardaşlarında davranış pozuntuları daha çox olurdu və autizmli uşaqları olan analar daha çox "stresli hadisələr" barədə məlumat verirdilər. Üç qrup arasında anaların şəxsiyyəti və uşaqların özünə baxışı baxımından heç bir fərq yox idi.

Ailədə xüsusi qayğıya ehtiyacı olan, yəni müəyyən xəstəlik və ya əlilliyi olan bir uşağın olması vəziyyətində, ən böyük dəstəkverici rollardan birini bacı-qardaşlar öz üzərinə götürür. Bu bacı-qardaşların əksəriyyəti yaşadıqları vəziyyətlə ümid və psixoloji dayanıqlılıq inkişaf etdirərək mübarizə aparmağı öyrənirlər .

Bundan əlavə, onların unikal təcrübələri sayəsində bir sıra güclü xüsusiyyətlər formalaşır. Bunlara emosional baxımdan yetkinləşmə, yüksək introspeksiya və empatiya, fərqliliklərə qarşı həssas və tolerant olma, yumoru müdafiə mexanizmi kimi effektiv şəkildə istifadə etmə, başqalarına kömək etməyə əsaslanan peşələrə yönəlmə və hüquq müdafiəsi sahəsində bacarıq qazanma kimi xüsusiyyətlər daxildir.

Ancaq xüsusi qayğıya ehtiyacı olan bir bacı və ya qardaşa sahib olmağın çətin və yorucu tərəfləri danılmazdır. Sağlam uşaqlar, xüsusi qayğıya ehtiyacı olan bacı-qardaşlarının yaşadığı problemlərlə həddindən artıq eyniləşə bilər və onların özlərinə məxsus, müstəqil bir həyatlarının ola biləcəyini dərk etməkdə çətinlik çəkə bilərlər. Bu uşaqlar tez-tez təcrid olunma, tənha qalma, itki hissi, qəzəb, qorxu, narahatlıq,

depressiya, utanma, qısqanclıq və günahkarlıq kimi güclü emosional təcrübələri intensiv şəkildə hiss edə bilərlər. Bundan əlavə, onlar bacı-qardaşlarının qayğısını çəkmək, boş vaxtlarını onlarla keçirmək və ya ev işlərində valideynlərə kömək etmək kimi mövzularda həddindən artıq məsuliyyət götürə bilərlər.

Bəzi hallarda valideynlərin tipik inkişaf göstərən uşaqlarından yüksək gözləntiləri ola bilər və bu, həmin uşaqlarda bilavasitə və ya dolayı yolla təzyiq hissi yaradaraq həddindən artıq iddialı, mükəmməllikçi və uğur yönümlü olmağa səbəb ola bilər. Bəzən isə valideynlərin birbaşa təzyiqi olmasa da, uşaqlar bacı-qardaşlarının yerinə yetirə bilmədiyi rolları kompensasiya etmək istəyi, günahkarlıq hissi ilə başa çıxmaq, valideynlərinin diqqətini cəlb etmək və onların təqdirini qazanmaq arzusu ilə müəyyən sahələrdə qeyri-adi dərəcədə yüksək performans göstərməyə çalışırlar. Lakin buna baxmayaraq, çox vaxt öz nailiyyətlərindən razı qalmırlar.

Valideynlərin fərqli rəftarları, yəni uşaqların valideynlərindən bərabər olmayan münasibət gördüklərini düşünməsi, bacı-qardaş münasibətləri və fərdi davranışlara əhəmiyyətli dərəcədə təsir edə bilər. Araşdırmalar göstərir ki, özlərinə valideynlər tərəfindən daha az üstünlük verildiyini düşünən uşaqlar zaman keçdikcə xaricə yönəlmiş davranışlar — məsələn, aqressiya və qayda pozuntuları — sərgiləməyə meyllidirlər [30]. Gənclik dövrünün erkən mərhələsində olan şəxslər arasında aparılan bir araşdırmada ananın övladları arasında fərlqi davranmasının bacı-qardaşlar arasındakı yaxınlığı azaltdığı aşkar edilib.Ata tərəfindən fərqli davranış göstərilməsi isə yalnız daha az üstünlük verilən bacı-qardaşın yaxınlığını azaltmış, üstünlük verilən bacı-qardaşa isə təsir etməmişdir [13].

Bacı-qardaş münasibətləri psixologiyada önəmli bir tədqiqat sahəsi olsa da, bu münasibətlərin keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan kəmiyyət alətləri azdır. Həmçinin, mövcud alətlərdən heç biri Azərbaycan dilində rəsmi olaraq təsdiqlənməyib. Bacı-qardaş münasibətlərini qiymətləndirmək üçün mövcud olan sorğular arasında Riggio tərəfindən hazırlanmış bu şkala ən çox istifadə edilən öz-özünü qiymətləndirmə alətlərindən biridir [31]. Bu sorğu, bacı-qardaş münasibətlərinin keyfiyyətini və münasibətlərə olan yanaşmaları, həm uşaqlıq, həm də yetkinlik dövründə, effektiv şəkildə ölçür və etibarlılığı ilə tanınır.

Bildiyimiz qədərilə, bu şkalanın psixometrik xüsusiyyətləri son 20 il ərzində ingilisdilli əhali arasında qiymətləndirilməmiş və ya hesabatlaşdırılmamışdır. Bu araşdırmada ABŞ-da yaşayan 370 gənc yetkinin iştirakı ilə şkalanın daxili etibarlılığı və konstruktiv uyğunluğu araşdırılmışdır. Nəticələr göstərmişdir ki, şkalanın orijinal altı faktorlu modeli, bəzi kiçik dəyişikliklərlə bacı-qardaş münasibətlərinin keyfiyyətini ölçmək üçün uyğun hesab edilə bilər. Həmçinin, ölçək daxilində müxtəlif faktorlar və alt bölmələr arasında güclü əlaqələrin olduğu müəyyən edilmişdir.

Bu şkala Koreyada [14] və İtaliyada [42] yetkinlər arasında bacı-qardaş münasibətlərinin xüsusiyyətlərini müəyyən etmək üçün istifadə olunmuşdur. Bu miqyasın həmin dillərə tərcüməsinin psixometrik xüsusiyyətləri də araşdırılmışdır.

Cari tədqiqatın məqsədi Ömür boyu bacı-qardaş münasibətləri şkalanın Azərbaycan dilinə tərcüməsinin psixometrik xüsusiyyətlərini qiymətləndirməkdir. Bu miqyas, psixososial araşdırmalarda bacı-qardaş münasibətlərinin keyfiyyətini qiymətləndirmək üçün bir alət kimi istifadə oluna bilər.

Ömür boyu bacı-qardaş münasibətləri şkalası, bacı qardaş münasibətləri ölçmək üçün şkalasını tərtib edilmişdir və bu ən çox isifadə olunan hesabat şkalalarından biridir.O həm uşaqlıq həmdə yetkinlik dövründə bacı qardaş münasibətlərinin keyfiyyətini və münasibətlərinin müxtəlif tərəflərini effektiv şəkildə ölçür,realığını və etibarlığını təmin edir. Ömür boyu bacı-qardaş münasibətləri şkalası bacı qardaş münasibətlərini 3 ölçüsünü ölçür: uşaqlıq və yetkinlikdə bacı-qardaşa yönəlmiş davranışın sıxlığı və pozitivliyi, bacı-qardaşa yönəlmiş hisslər; düşüncələr. Burada bacı-qardaş münasibətlərinin məmnuniyyəti, əlaqələrinin yaxınlığı, bacı qardaşın rol modeli olaraq yanaşması və bacı qardaşın sosial dəstəyi şkalada özünü göstərir.

## II Fəsil. "Ömür boyu bacı-qardaş münasibətləri şkalası"nın Azərbaycan dilinə adaptasiyası

## 2.1.Tədqiqatın metodologiyası

Bu araşdırmada metodologiya olaraq kross-sektional sorğu dizaynı istifadə edilmişdir. Ömür boyu bacı-qardaş münasibətləri şkalasının Azərbaycanlı yeniyetmələr üçün adaptasiyası, tərcümə və geri tərcümə prosesi, ekspert qiymətləndirmələri və pilot testlərdən ibarət çox mərhələli bir yanaşma ilə həyata keçirilmişdir. Məlumatlar Azərbaycanda 367 nəfərdən sərbəst seçmə yolu ilə toplanmışdır. Şkaladakı psixometrik xüsusiyyətləri qiymətləndirmək üçün təsdiqləyici faktor analizi, paralel validlik və etibarlılıq təhlilləri həyata keçirilmişdir. Ayrıca, PROCESS vasitəçi analizindən istifadə edərək, bacı qardaş münasibətləri, həyatdan məmnunluq və psixoloji dözüm arasındakı əlaqələr araşdırılmışdır. Nəticə olaraq, bu tədqiqatda azərbaycanlı uşaqlar arasında bacı-qardaş münasibətləri ilə müxtəlif psixoloji məsələlər arasındakı əlaqə kəmiyyət tədqiqat metoduyla öyrənilmişdir. Məlumatlar 2024-cü ilin sentyabr və oktyabr aylarında toplanmışdır.

Məlumatlar onlayn sorğular vasitəsilə, təsadüfi seçmə üsulu ilə toplanmış və 18-59 yaş aralığında olan, Azərbaycanda yaşayan 367 yetkin şəxsi əhatə etmişdir. İştirakçıların orta yaşı 25.04 il (standart sapma 7.60) təşkil edir. İştirakçılar arasında 327 nəfər (ümumi nümunənin 89.1%-i) qadın, 40 nəfər (10.9%-i) isə kişi olmuşdur. İştirakçıların əhəmiyyətli bir hissəsi ali təhsil almışdır (n=315, 85.8%). Respondentlərin 53.4%-i (n=196) işsiz, 46.6%-i (n=171) isə işləyən olmuşdur. Araşdırmada iştirak edənlərin böyük əksəriyyəti (80.1%, n=294) iqtisadi vəziyyətlərinin orta səviyyədə olduğunu vurğulamışdır. Yalnız 8.4% (n=31) öz iqtisadi vəziyyətlərindən razı qaldıqlarını bildirərkən, iştirakçıların qalan 11.5%-i (n=42) isə iqtisadi vəziyyətlərindən narazı olduqlarını ifadə etmişdir.İştirakçıların 44.7%-i (n=164) ailələrində üç uşağın olduğunu bildirərkən, 40.3%-i (n=148) ailələrində iki uşağın olduğunu qeyd etmişdir. Sorğuda iştirak edənlərin yarısı (50%) özlərini ailənin ilk övladı kimi təsvir etmiş, 33.8%-i ikinci uşaq olduğunu bildirmiş, qalan 16.1%-i isə özlərini ailənin üçüncü və ya sonuncu övladı kimi xarakterizə etmişdir. İştirakçılarla bağlı ətraflı məlumatlar Cədvəl 2. 1-də təqdim olunmuşdur.

| **Dəyişənlər** | **Tezlik** | **%** |
|---|---|---|
| **Cins** | | |
| Qadın | 327 | 89.1 |
| Kişi | 40 | 10.9 |
| **Mədəni vəziyyəti** | | |
| Evli | 271 | 73.8 |

| | | |
|---|---|---|
| Subay | 96 | 26.2 |
| **Təhsil səviyyəsi** | | |
| Orta məktəb təhsili | 23 | 6.3 |
| Peşə və ya texniki orta təhsil | 29 | 7.9 |
| Ali təhsil | 315 | 85.8 |
| **Ailədəki uşaqların sayı** | | |
| Bir | 12 | 3.3 |
| İki | 164 | 44.7 |
| Üç | 148 | 40.3 |
| Dörd və daha çox | 43 | 11.7 |
| **İqtisadi vəziyyəti** | | |
| Aşağı | 42 | 11.5 |
| Orta | 294 | 80.1 |
| Yüksək | 31 | 8.4 |
| **Bacı və/ya qardaşın olması** | | |
| Bacı | 72 | 19.6 |
| Qardaş | 151 | 41.1 |
| Hər ikisi | 144 | 39.2 |

Cədvəl 2.1. İştirakçılar barədə məlumat

Məlumatlar onlayn sorğu forması vasitəsilə toplanmış və məktəb psixoloqları tərəfindən iştirakçılara təqdim edilmişdir. İştirakçılar məktəblərdən sərbəst seçmə üsulu ilə müəyyən edilmişdir. Bu metod, tədqiqat qrupuna asanlıqla əldə edilə bilən və əlverişli bir nümunə seçmək imkanı vermişdir. Məktəb psixoloqları öz məktəblərində

onlayn sorğu linklərini yeniyetmələrlə paylaşmışdır. Sorğunun başlanğıc hissəsində iştirakçılara tədqiqat haqqında məlumat verilmiş və razılıq alınmışdır. Sorğuda ilk olaraq şəxsə aid demoqrafik məlumatları toplayan suallar yer almış, sonrasında isə Azərbaycan dilinə uyğunlaşdırılması nəzərdə tutulan şkala və digər korrelyasiya əlaqələri öyrənilən şkalalar verilmişdir. Onlayn sorğu, natamam cavabların qarşısını aldığı üçün məlumat itkisi yaşanmamışdır. Tədqiqatda istifadə edilən ölçmə vasitələri aşağıdakı kimidir:

Bu tədqiqatın əsas məqsədi Ömür Boyu Bacı-Qardaş Münasibəti Şkalasının psixometrik xüsusiyyətlərini qiymətləndirmək olub. Bunun üçün struktur etibarlılığı, güvənilirliyi, meyarla bağlı etibarlılığı və proqnozverici etibarlılığı araşdırılmışdır.Tədqiqatda aşağıdakı ölçmə vasitələri istifadə olunmuşdur:

**Ömür boyu bacı-qardaş münasibəti şkalası** Riggo tərəfindən 2000-ci ildə bacı-qardaş münasibətlərini 3 ölçüdə öyrənmək üçün hazırlanmışdır: bacı-qardaşa yönəlmiş davranışın intensivliyi və pozitivliyi, bacı-qardaşa yönəlmiş hisslər və bacı-qardaş münasibəti ilə bağlı inanclar. Şkala 48 maddədən ibarətdir ("Mənim qardaşım/bacım və mən birlikdə çox şey edirik"). Suallar 5 ballıq Likert şkalası ilə qiymətləndirilir (1- "qətiyyən razı deyiləm", 5- "tamamilə razıyam"). Şkaladakı 48 sualın hər bir hissəsi müəyyən mövzulara toxunur:

Yetkinlik dövründə emosional bağlılıq (1-8-ci maddələr), yetkinlik dövründə davranışlar (9-16-cı maddələr), yetkinlik dövründə düşüncələr (17-24-cü maddələr), uşaqlıq dövründə emosional bağlılıq (25-32-ci maddələr), uşaqlıq dövründə davranış (33-40-cı maddələr), uşaqlıq dövründə düşüncələr (41-48-ci maddələr).

| Təlimat: Aşağıda verilən sualları 5 ballıq sistemdə qiymətləndirin.<br>①Qətiyyən razı deyiləm, ②Razı deyiləm, ③Nə razıyam, nə də deyiləm, ④Razıyam, ⑤Tamamilə razıyam | | | | | |
|---|---|---|---|---|---|
| Bacım/qardaşım məni xoşbəxt edir. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacımın/qardaşımın hissləri mənim üçün çox önəmlidir. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla olan münasibətimdən zövq alıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla qürur duyuram. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım və mən birlikdə çox əylənirik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım tez-tez məni çox əsəbiləşdirir. | 1 | 2 | 3 | 4 | 5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Bacım/qardaşıma heyranam. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla vaxt keçirməyi xoşlayıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Hazırda bacım/qardaşımla çox vaxt keçirirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşıma tez-tez telefonla zəng edirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla sirlərimizi bir-birimizlə bölüşürük. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla mən birlikdə çox şey edirik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla heç vaxt problemlərim barədə danışmıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım və mən birlikdə zaman keçirib əylənirik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım mənimlə şəxsi problemlərdən danışır. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım yaxşı dostdur. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım mənim həyatımda çox önəmlidir. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla mən çox yaxın deyilik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım mənim ən yaxşı dostlarımdan biridir. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla mənim ortaq cəhətlərimiz çoxdur. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım üçün çox vacib olduğuma inanıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımın ən yaxşı dostlarından biri olduğumu bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşım mənimlə fəxr edir. | 1 | 2 | 3 | 4 | 5 |
| Biz uşaq olanda bacım/qardaşım məni çox narahat edirdi. | 1 | 2 | 3 | 4 | 5 |
| Uşaq vaxtı bacımı/qardaşımı çox sevdiyimi xatırlayıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Biz uşaq olanda bacım/qardaşım mənə özümü pis hiss etdirirdi. | 1 | 2 | 3 | 4 | 5 |
| Biz uşaq olanda tez-tez bacıma/qardaşıma hirslənirdim. | 1 | 2 | 3 | 4 | 5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Mən uşaq olanda bacım/qardaşımla fəxr edirdim. | 1 | 2 | 3 | 4 | 5 |
| Uşaq vaxtı bacım/qardaşımla vaxt keçirməkdən zövq alırdım. | 1 | 2 | 3 | 4 | 5 |
| Uşaq olanda özümü bacıma/qardaşıma çox yaxın hiss etdiyimi xatırlayıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Uşaq olanda bacım/qardaşımla çox əyləndiyimizi xatırlayıram. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla mən tez-tez eyni uşaqlarla dostluq edirdik. | 1 | 2 | 3 | 4 | 5 |
| Mən və bacım/qardaşım uşaq vaxtı sirlərimizi bölüşdük. | 1 | 2 | 3 | 4 | 5 |
| Mən və bacım/qardaşım uşaq vaxtı tez-tez bir-birimizə kömək edirdik. | 1 | 2 | 3 | 4 | 5 |
| Biz uşaq olanda bacım/qardaşım mənə baxırdı (və ya mən ona baxırdım). | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla mən uşaq vaxtı tez-tez birlikdə oynayırdıq. | 1 | 2 | 3 | 4 | 5 |
| Biz uşaq olanda bacım/qardaşımla çox vaxt keçirmirdik. | 1 | 2 | 3 | 4 | 5 |
| Mən və bacım/qardaşım məktəbdən sonra uşaqlıqda birlikdə vaxt keçirirdik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla uşaqlıqda dost idik. | 1 | 2 | 3 | 4 | 5 |
| Biz uşaq olanda bacım/qardaşımla mənimlə oynamağı xoşlamırdı. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla uşaq olanda çox yaxın idik. | 1 | 2 | 3 | 4 | 5 |
| Mən və bacım/qardaşım uşaq olanda bir-birimiz üçün önəmli idik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımın uşaqlığıma mühüm və müsbət təsiri oldu. | 1 | 2 | 3 | 4 | 5 |
| Uşaq olanda bacım/qardaşım mənim haqqımda hər şeyi bilirdi | 1 | 2 | 3 | 4 | 5 |
| Mən və bacım/qardaşım uşaq olanda eyni şeyləri sevirdik. | 1 | 2 | 3 | 4 | 5 |
| Bacım/qardaşımla uşaqlıqda ortaq cəhətlərimiz çox idi. | 1 | 2 | 3 | 4 | 5 |

Cədvəl 2.2. Ömür boyu bacı-qardaş münasibətləri şkalası

**Həyatdan məmnunluq şkalası** Diener və həmkarları (1985) tərəfindən hazırlanmış və "Əksər cəhətdən, mənim həyatım idealıma yaxındır" kimi 5 maddədən ibarətdir. Şkala həyat məmnuniyyətini qiymətləndirmək üçün 7 ballıq Likert şkalasından (1 = tamamilə razı deyiləm, 7 = tamamilə razıyam) istifadə edir. Daha yüksək ballar daha yüksək həyat məmnuniyyətini göstərir. Şkalanın etibarlılıq analizi aparılmış və Kronbax alfa əmsalı 0.74 olaraq müəyyən olunmuşdur.

**Qısa psixoloji dayanıqlılıq şkalası** Smith və həmkarları tərəfindən 2008-ci ildə hazırlanmışdır və fərdin stressdən sağalma və ya "bərpa olma" qabiliyyətini ölçmək üçün nəzərdə tutulmuşdur. Şkala 6 maddədən ibarət özünüqiymətləndirmə alətidir (məsələn: "Pis bir şey baş verdikdə toparlanmaq mənim üçün çətindir"). Cavablar 5 ballıq Likert şkalasında qiymətləndirilir (1- "qətiyyən razı deyiləm", 5- "tamamilə razıyam"). Şkalanın daxili uyğunluğu Kronbax alfa ilə 0.87 olaraq müəyyən edilmişdir.

Yuxarıda qeyd olunan ölçmə vasitələrinə əlavə olaraq, tədqiqatda iştirakçılara aid sosial-demoqrafik (yaş, cins və s.) məlumatları toplamaq üçün kiçik anket suallarından istifadə edilmişdir. Bu araşdırmada "Ömür boyu bacı-qardaş münasibətləri şkalası" Azərbaycan dilinə uyğunlaşdırılmış və üçölçülü strukturu təsdiqləyici faktor analizi ilə yoxlanılmışdır. Şkalanın strukturunun təsdiqləyici faktor analizi nəticəsində, bu tədqiqatda əldə edilən məlumatların şkalanın üçölçüsü ilə uyğun olduğu müəyyən edilmişdir. Adaptasiya olunmuş şkaladakı daxili tutarlılıq, Kronbax alfa, McDonald omeqa və Guttman lambda da daxil olmaqla müxtəlif etibarlılıq əmsallarından istifadə edərək qiymətləndirilmişdir. Bundan əlavə, konvergent etibarlılığı qiymətləndirmək üçün adaptasiya olunmuş Ömür boyu bacı-qardaş münasibəti ilə həyatdan məmnunluq və psixoloji dözüm şkalaları arasındakı korrelyasiya araşdırılmışdır. Bu təhlil, şkalanın konvergent etibarlılığını dəstəkləyən digər psixoloji konstruksiyalarla gözlənilən əlaqələrin olub-olmamasını müəyyən etmək məqsədi güdmüşdür.

## 2.2. Tədqiqat nəticələrinin təhlili

Azərbaycan "Ömürboyu bacı-qardaş münasibətləri şkalası"nın struktur təsdiqləyici faktor analiz vasitəsilə qiymətləndirilmiş və şkalanın orijinal versiyada olduğu kimi bacı-qardaş münasibətlərini altı istiqamətdə dəyərləndiyi təsdiq olunmuşdur:

(a) yetkinlik dövründə emosional bağlılıq,
(b) yetkinlik dövründə davranış,
(c) yetkinlik dövründə düşüncələr,
(d) uşaqlıq dövründə emosional bağlılıq,
(e) uşaqlıq dövründə davranış,
(f) uşaqlıq dövründə düşüncələr.

Azərbaycan versiyasının bütün maddələri güclü faktor yüklərinə malikdir. Şkalanın faktor quruluşunu qiymətləndirmək üçün Konfirmator Faktor Analizi (CFA) aparılmışdır. CFA-nın nəticələri göstərmişdir ki, şkalanın on dördüncü maddəsinin faktor yükü 0.30-dan aşağıdır. Buna görə də, şkalanın Azərbaycan versiyasının 14-cü maddəsi uyğun hesab edilməyərək ölçəkdən çıxarılmışdır. Faktor strukturunu araşdırmaq üçün eksplorator faktor analizindən əvvəl ölçəyin 48 maddəsi üzrə maddə-ümumi skor korrelyasiyaları qiymətləndirilmişdir. Nəticələr göstərmişdir ki, 14-cü maddənin ("Mən və bacım/qardaşım bir-birimizdən əşyalar borc alırıq") digər maddələrlə korrelyasiya əmsalı 0.30-dan aşağıdır və əlavə olaraq, bu maddə bir neçə digər maddə ilə mənfi korrelyasiya göstərmişdir. Analiz nəticəsində bu maddənin çıxarılmasının etibarlılıq əmsalını artırdığı müəyyən edilmişdir.Faktor analizlərinin nəticələrinə əsasən, şkalanın orijinal versiyası ilə uyğun olan altı ölçü müəyyən edilmişdir. Şəkil 1-də verilmiş 47 maddəsinin faktor yükləri 0.904 ilə 0.423 arasında dəyişir. Faktor yükləri 0.60-dan yuxarı olduqda yüksək, 0.30 ilə 0.59 arasında olduqda isə "orta" kimi qiymətləndirilir və bu, bir dəyişənin çıxarılıb-çıxarılmaması barədə qərar vermək üçün nəzərə alına bilər (Kline, 1994).



Şəkil 2.1. Təsdiqləyici faktor analiz nəticələri

CFA-nın nəticələri müsbət uyğunluq indekslərinin modelin etibarlılığını artırdığını göstərmişdir: Khi-kvadrat statistikası $x^2(1019, N = 2980,371) = 2.925$ olmuş və $p < .001$ dəyəri əldə edilmişdir. Əsas uyğunluq indeksləri aşağıdakı kimi olmuşdur: CFI = 0.837, RFI = 0.749, NFI = 0.773, IFI = 0.838, TLI = 0.819, RMSEA = 0.063

Bu göstəricilər modelin verilənlərə adekvat uyğunluq nümayiş etdirdiyini göstərir. Şkalanın struktur bütövlüyü təsdiqləndikdən sonra, Maddə Cavab Nəzəriyyəsi (IRT) analizi nəticələri göstərmişdir ki, diskriminasiya parametri (a) dəyərləri 0.918 ilə 3.587 arasında dəyişir. Baker-in (2001) çərçivəsinə əsasən, iki maddə (27-ci və 35-ci maddələr) məhdud ayırdetmə qabiliyyətinə malikdir, digər 45 maddə isə yüksək diskriminasiya göstəricisi nümayiş etdirmişdir. Ən yüksək diskriminasiya dəyərlərinə sahib maddələr:maddə 1 (3.069), maddə 5 (3.187), maddə 7 (3.044), maddə 17 (3.587)

Bu tapıntılar, Ömür boyu Bacı-Qardaş Münasibətləri Şkalasının 47 maddəsinin müxtəlif səviyyələrdə bacı-qardaş münasibətlərini fərqləndirmək üçün kifayət qədər diskriminasiya gücünə malik olduğunu göstərir.

| | Ümumi | Yetkinlik dövründə emosional bağlılıq | Yetkinlik dövründə davranış | Yetkinlik dövründə düşüncələr | Uşaqlıq dövründə emosional bağlılıq | Uşaqlıq dövründə davranış | Uşaqlıq dövründə düşüncələr |
|---|---|---|---|---|---|---|---|
| Cronbach α | .960 | .927 | .855 | .917 | .877 | .845 | .870 |
| McDonald ω | .939 | .920 | .847 | .908 | .882 | .839 | .848 |
| Guttmann λ6 | .942 | .924 | .863 | .910 | .892 | .865 | .876 |

Cədvəl 2.3. Ömür boyu bacı-qardaş münasibətləri şkalası üçün etibarlıq əmsalları

CFA və IRT analizindən sonra şkalanın daxili konsistensiya etibarlılığı ətraflı şəkildə qiymətləndirildi və Cədvəl 2.6 göstərildiyi kimi üç fərqli əmsaldan istifadə edildi: Cronbach'ın alfa, McDonald'ın omega və Guttmann'ın lambda. şkalanın bütün altı faktoru güclü etibarlılıq nümayiş etdirdi. Xüsusilə, ümumi şkala üçün Cronbach'ın alfa əmsalı (0.960) şkalanın yüksək etibarlılığını göstərir və altı faktorun etibarlılığı 0.845 ilə 0.927 arasında dəyişir. Eyni şəkildə, McDonald'ın omega əmsalı da 0.939 dəyəri ilə şkalanın etibarlılığını təsdiqlədi. Altı faktor üçün McDonald'ın omega əmsalı 0.839 ilə 0.920 arasında dəyişir. Guttmann'ın lambda əmsalı isə 0.814 dəyəri ilə şkalanın vahid əsas konstruktu ölçdüyünü əlavə sübut kimi təqdim edir. Bundan əlavə, altı faktor üçün lambda əmsalı 0.865 ilə 0.942 arasında dəyişən dəyərlər əldə etdi. Nəticələr, yüksək etibarlılığa malik olduğunu göstərir.

| Dəyişənlər | Psixoloji dözümlülük | Həyatdan məmnunluq |
|---|---|---|
| Ümumi Ömür Boyu Bacı-Qardaş Münasibətləri şkalası | .288** | .381** |
| Yetkinlik dövründə emosional bağlılıq | .189** | .235** |
| Yetkinlik dövründə davranış | .218** | .272** |
| Yetkinlik dövründə düşüncələr | .205** | .320** |
| Uşaqlıq dövründə emosional bağlılıq | .213** | .208** |
| Uşaqlıq dövründə davranış | .209** | .181** |
| Uşaqlıq dövründə düşüncələr | .224** | .249** |

Cədvəl 2.4. Ömür boyu bacı-qardaş münasibətləri şkalasının kriteriya ilə bağlı etibarlılığı

Ömür boyu bacı-qardaş münasibətləri şkalası altı faktorunun – böyüklərdə emosional münasibət, böyüklərdə davranış, böyüklərdə idrak, uşaqlarda emosional münasibət, uşaqlarda davranış və uşaqlarda idrak – meyarla əlaqəli etibarlılığını qiymətləndirmək üçün Ömür boyu bacı-qardaş münasibətləri şkalası , həyat məmnuniyyəti, həm də psixoloji dayanıqlıq yüksək istifadə edilmişdir.

Qeyd etmək vacibdir ki, bütün analizlər statistik cəhətdən əhəmiyyətli korrelyasiyalar göstərmişdir ($p < .001$). Ömür boyu bacı-qardaş münasibətləri şkalası altı faktoru həyat məmnuniyyəti ilə $r = .181$ ilə $r = .320$ arasında dəyişən müsbət korrelyasiya nümayiş etdirmişdir. Ümumilikdə, LSRS psixoloji davamlılıqla ($r = .288$, $p < .001$) və həyat məmnuniyyəti ilə ($r = .381$, $p < .001$) müsbət korrelyasiya göstərmişdir. Bundan əlavə, şkalanın bütün altı faktoru psixoloji davamlılıqla $r = .189$ ilə $r = .224$ arasında dəyişən müsbət korrelyasiya göstərmişdir.

# NƏTİCƏ:

- Şkalanın Azərbaycan dilinə uyğunlaşdırılmış variantının təsdiqedici faktor analizinin psixometrik nəticələri orijinal versiyanın strukturunu dəstəkləmişdir.
- Təhlil göstərdi ki, 47 maddəlik şkala fərdlərin bacı-qardaş münasibətlərini qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, şkala daxili tutarlılıq və etibarlılıq baxımından qənaətbəxş psixometrik xüsusiyyətlərə malikdir.
- “Ömür boyu bacı-qardaş münasibətləri şkalası” etibarlılıq səviyyəsi 0,70 baldan yüksək olmuşdur. Nunnali və Bernşteynə görə bu tamamilə qənaətbəxş bir göstəricidir. Bu şkala üçün Kronbax alfa, 0,960 olaraq müəyyən olunmuşdur. Kronbax alfa-dan başqa, McDonald omeqa və Gutman Lambda etibarlılıq əmsalları da qiymətləndirilmiş və omeqa üçün 0.939, lamba üçün 0.814, dəyəri əldə olunmuşdur.
- Nəticələr göstərib ki, bacı-qardaş münasibətləri yaxşı olan ailələrdə həm həyat məmnuniyyəti, həm də psixoloji dayanıqlıq yüksəkdir. Eyni zamanda ailə daxili münasibətlərin yaxşı olması insanların ümumi rifahına, həyat məmnuniyyətinə, psixoloji dayanıqlılığına və psixoloji sağlamlığına müsbət təsir göstərir.
- “Ömür boyu bacı-qardaş münasibətləri şkalası”nın Azərbaycan dilində validlik və etibarlılıq kimi psixometrik meyarları yoxlanılmış və şkala dilimizə müvəffəqiyyətlə adaptasiya olunmuşdur.

## Ədəbiyyat siyahısı:


1. Ansbacher, H.L., Ansbacher, R.R. The individual psychology of Alfred Adler. New York: Basic Books. - 1956
2. Buhrmester, D., & Furman, W. Perceptions of sibling relationships during middle childhood and adolescence // Child Development, -1990. 61(5), -p. 1387–1398.
3. Buhrmester, D. The developmental courses of sibling and peer relationships // In F. Boer & J. Dunn (Eds.), Children’s sibling relationships: Developmental and clinical issues, -1992. -p. 19–40. Lawrence Erlbaum.
4. Boer, F., & Dunn, J. (Eds.). Children’s sibling relationships: Developmental and clinical issues // Lawrence Erlbaum Associates, Inc., -1992.
5. Carver, C. S. Self-awareness // In M. R. Leary & J. P. Tangney (Eds.), Handbook of self and identity, -2003. -p. 179–196. The Guilford Press.
6. Connolly, J. A., & McIsaac, C. Romantic relationships in adolescence // In R. M. Lerner & L. Steinberg (Eds.), Handbook of adolescent psychology: Contextual influences on adolescent development, -2009. 3rd ed., -p. 104–151. John Wiley & Sons, Inc.
7. Deater-Deckard, K., Dunn, J., Lussier, G. Sibling relationships and social-emotional adjustment in different family contexts // Social Development, - 2002;
8. Dunn, J., & Brown, J. Affect expression in the family, children’s understanding of emotions, and their interactions with others // Merrill-Palmer Quarterly, -1994. 40(1), -p. 120–137.
9. Dunn, J. F., & Munn, P. Becoming a family member: Family conflict and the development of social understanding in the second year // Child Development, -1985. 56(2), -p. 480–492.

10. Herrera, C., & Dunn, J. Early experiences with family conflict: Implications for arguments with a close friend // Developmental Psychology, - 1997. 33(5), -p. 869–881

11. Hoffman, K.L., Kiecolt, K.J., Edwards, J.N. Physical violence between siblings: A theoretical and empirical analysis // Journal of Family Issues, - 2005

12. Jenkins, J. M. Sibling relationships in disharmonious homes: Potential difficulties and protective effects. In: Boer F, Dunn J, editors. Children's sibling relationships: Developmental and clinical issues // Hillsdale, NJ: Erlbaum, -1992

13. Jensen, A. C., Jorgensen-Wells, M. A., Andrus, L. E., Pickett, J. M., Leiter, V. K., Hadlock, M. E. B., & Dayley, J. C. Sibling differences and parents' differential treatment of siblings: A multilevel meta-analysis // Developmental Psychology, -2023. 59(4), -p. 644–654.

14. Jeong, H. S., Jeong, E. J., Yu, S. Y., Lyoo, Y. C., Im, J. J., Bae, S., & Kim, J. E. Reliability and validity of the Korean version of the Lifespan Sibling Relationship Scale // Experimental Neurobiology, - 2013. 22(4), -p.330–336.

15. Kan, M., McHale, S.M, Crouter, A.C. Interparental incongruence in differential treatment of adolescent siblings: Links with marital quality // Journal of Marriage and Family, - 2008

16. Kim, J., McHale, S.M., Osgood, D.W, Crouter, A.C. Longitudinal course and family correlates of sibling relationships from childhood through adolescence. // Child Development. - 2006

17. Knott, F., Lewis, C., Williams, T. Sibling interaction of children with autism: Development over 12 months. // Journal of Autism and Developmental Disorders

18. Kunz, J. Parental divorce and children's interpersonal relationships: A meta-analysis // Journal of Divorce & Remarriage, - 2001

19. Levy-Wasser, N., Katz, S. The relationship between attachment style, birth order, and adjustment in children who grow up with a sibling with mental retardation // British Journal of Developmental Disabilities, - 2004. 50, -p. 89–98.

20. Mandelco, B., Olsen, S.F., Dyches, T., Marshall E. The relationship between family and sibling functioning in families raising a child with a disability. // Journal of Family Nursing, - 2003. 9, -p. 365–396.

21. McHale, S.M., Harris, V.S. Children's experiences with disabled and nondisabled siblings: Links with personal adjustment and relationship evaluations. In: Boer F, Dunn J, editors. Children's sibling relationships: Developmental and clinical issues. Hillsdale, NJ: Erlbaum, – 1992. -p. 83–100.

22. McHale, S. M., Kim, J.-Y., & Whiteman, S. D. Sibling Relationships in Childhood and Adolescence // In P. Noller & J. A. Feeney (Eds.), Close

relationships: Functions, forms and processes, -2006. -p. 127–149. Psychology Press/Taylor & Francis (UK).

23. Miller, R. B. Psychology and Science // In R. B. Miller, Facing human suffering: Psychology and psychotherapy as moral engagement, -2004. -p. 115–157. American Psychological Association.

24. Minuchin, P. Families and individual development: Provocations from the field of family therapy. Child Development, - 1985. 56, -p. 289–302

25. Milevsky, A. Sibling relationships in childhood and adolescence: Predictors and outcomes // Columbia University Press, -2011.

26. Milevsky, A., & Levitt, M. J. Sibling support in early adolescence: Buffering and compensation across relationships // European Journal of Developmental Psychology, -2005. 2(3), -p. 299–320.

27. Noller, P. (2005). Sibling relationships in adolescence: Learning and growing together. Personal Relationships, 12(1), 1–22.

28. Noller, P., Conway, S., Blakeley-Smith, A. Sibling relationships in adolescent and young adult twin and nontwin siblings: Managing competition and comparison. In: Forgas JP, Fitness J, editors. // Social relationships: Cognitive, affective, and motivational processes. New York: Psychology Press, - 2008

29. O’Connor, T.G., Hetherington, E.M., Reiss, D. Family systems and adolescent development: Shared and nonshared risk and protective factors in nondivorced and remarried families // Development and Psychopathology, -1998

30. Richmond, M. K., Stocker, C. M., & Rienks, S. L. Longitudinal associations between sibling relationship quality, parental differential treatment, and children's adjustment // Journal of Family Psychology, - 2005 . 19(4), -p. 550-559.

31. Riggio, H. R. Measuring attitudes toward adult sibling relationships: The Lifespan Sibling Relationship Scale // Journal of Social and Personal Relationships, -1997. 17(6), -p. 713–732

32. Sandstrom, G. M., & Dunn, E. W. Is efficiency overrated?: Minimal social interactions lead to belonging and positive affect // Social Psychological and Personality Science, -2014. 5(4), -p. 437–442.

33. Seiffge-Krenke, I. Testing theories of romantic development from adolescence to young adulthood: Evidence of a developmental sequence // International Journal of Behavioral Development, -2003. 27(6), -p. 519–531.

34. Steinberg, L., & Morris, A. S. Adolescent development // Annual Review of Psychology, -2001. 52, -p. 83–110.

35. Scharf, M., & Shulman, S. Sibling relationships in emerging adulthood and in adolescence // Journal of Adolescent Research, - 2005. 20(1), -p. 64-90.

36. Sharpe, D. & Rossiter, L. Siblings of children with a chronic illness: A meta-analysis // Journal of Pediatric Psychology. – 2002. 27, -p. 699–710.

37. Sherman, D. K., & Cohen, G. L. The psychology of self-defense: Self-affirmation theory // In M. P. Zanna (Ed.), Advances in experimental social psychology, -2006. Vol. 38, -p. 183–242. Elsevier Academic Press.

38. Shulman, S., & Kipnis, O. Adolescent romantic relationships: A look from the future // Journal of Adolescence, -2001. 24(3), -p. 337–351.

39. Shulman, S., & Scharf, M. Adolescent romantic behaviors and perceptions: Age-and gender-related differences, and links with family and peer relationships // Journal of Research on Adolescence, -2000. 10(1), -p. 99–118.

40. Shulman, S., & Scharf, M. (2000). Adolescent romantic behaviors and perceptions: Age-and gender-related differences, and links with family and peer relationships. Journal of Research on Adolescence, 10(1), 99–118.

41. Smith, B. W., Dalen, J., Wiggins, K., Tooley, E., Christopher, P., & Bernard, J. The brief resilience scale: Assessing the ability to bounce back // International Journal of Behavioral Medicine, -2008. 15(3), -p. 194–200.

42. Sommantico, M., Donizzetti, A. R., De Rosa, B., & Parrello, S. Young adults' sibling relationships: Italian adaptation and validation of the Lifespan Sibling Relationship Scale // Journal of Social and Personal Relationships, - 2019. 36(2), -p. 659–680.

43. Solmeyer, A. R., Killoren, S. E., McHale, S. M., & Updegraff, K. A. Coparenting around siblings' differential treatment in Mexican-origin families // Journal of Family Psychology, -2011. 25(2), -p. 251–260.

44. Stocker, C.M, Youngblade, L. Marital conflict and parental hostility: Links with children's sibling and peer relationships // Journal of Family Psychology, - 1999

45. Stoneman, Z., Brody, G.H., Churchill, S.L., Winn, L.L. Effects of residential instability on Head Start children and their relationships with older siblings: Influences of child emotionality and conflict between family caregivers // Child Development, -1999. 70, -p.1246–1262.

46. Stoneman, Z., Brody, G. H., & MacKinnon, C. E. Same-sex and cross-sex siblings: Activity choices, roles, behavior, and gender stereotypes // Sex Roles: A Journal of Research, -1986. 15(9-10), -p. 495–511.

47. Stoneman, Z. Supporting positive sibling relationships during childhood // Institute on Human Development and Disability, University of Georgia, 850 College Station Road, Athens, GA 30602-4806, USA.

48. Tucker, M. A., Halpern, A., Holly, E. A., Hartge, P., Elder, D. E., Sagebiel, R. W., Guerry 4th, D., & Clark Jr, W. H. Clinically recognized dysplastic nevi. A central risk factor for cutaneous melanoma// The title of the article // Genetic Epidemiology Branch, National Cancer Institute, National Institutes of Health, Bethesda, Md, 20892-7372, USA.

49. Volling, B. L. Sibling relationships. In M. H. Bornstein, L. Davidson, C. L. M. Keyes, & K. A. Moore (Eds.) //Well-being: Positive development across the life course (pp. 205–220). Lawrence Erlbaum Associates Publishers, -2003

50. Volling, B.L & Elins, J.L. Family relationships and children's emotional adjustment as correlates of maternal and paternal differential treatment: A replication with toddler and preschool siblings // Child Development, -1998

51. Whiteman, S. D., & McHale, S. M. Competing processes of sibling influence: Observational learning and sibling deidentification // Review of Social Development, -2007. 16(4), -p. 642-661.

52. Whiteman, S. D., & McHale, S. M. Theoretical Perspectives on Sibling Relationships // Journal of Family Theory & Review, -2011. 3(2), -p. 124–139.